***Press-reliz***

| | |
|---|---|
| *Tarix* | **18 may 2023-cü il** |
| *Əlaqə məlumatları* | **Aysel Süleymanova**<br>Marketinq, Kommunikasiyalar və Biznesin İnkişafı üzrə Rəhbər, PwC firmasının Azərbaycan Respublikasında Filialı<br>Tel: +994124972515<br>E-poçt: aysel.suleymanova@pwc.com |
| *Səhifə* | 1 |

**“PwC Azərbaycan” 6-cı İllik Qlobal CEO Sorğusu çərçivəsində iqtisadiyyatın inkişafı perspektivləri və müəssisələrin gələcək planlarının qiymətləndirilməsinə dair nəticələri əhatə edən hesabatı təqdim edib**

18 may 2023-cü il tarixində “PwC Azərbaycan” şirkəti “Four Seasons Hotel Baku”-da 6-cı İllik CEO Sorğusunun nəticələrini təqdim edib. Xüsusi diqqət biznesin yeni tələblərə uyğunlaşdırılması və qısamüddətli təzyiqlərin idarə edilməsi arasındakı zərif balansa yetirilmişdir. Sorğu şirkət rəhbərlərinin makroiqtisadi qeyri-sabitlik, geosiyasi qeyri-müəyyənlik və texnoloji pozuntular kimi təxirəsalınmaz çağırışları həll edərkən bizneslərinin uzunmüddətli təhdidlərə və tendensiyalara uyğunlaşdırmaq üçün transformasiyası zamanı üzləşdikləri artan gərginliyi vurğulayır.

Hesabatda şirkət rəhbərləri tərəfindən bu cür aktual problemlərin həll edilməsi metodları ilə bağlı dəyərli fikirlər təqdim edilib, bugünkü iqtisadi mühit və uzunmüddətli perspektivdə dəyişikliklər qarşısında işçilərin səlahiyyətlərinin artırılması və maksimum dərəcədə cəlb edilməsinin vacibliyi vurğulanıb.

Tədbirdə 100-dən artıq şirkət rəhbərləri, o cümlədən xarici səfirliklər, dövlət sektoru, hökumət və media nümayəndələri iştirak ediblər. “PwC Azərbaycan” şirkətinin Ölkə üzrə İdarəedici Partnyoru Mövlan Paşayev Sorğunun nəticələrini təqdim edib və “Azərbaycan üçün əhəmiyyətli olan nəticələrə yenidən baxış” mövzusunda panel müzakirəsinə moderatorluq edib. İqtisadi qeyri-sabitlik şəraitində biznes-mühit, rəqəmsallaşma tendensiyaları, investisiyalar və dayanıqlıq mövzusunda panel müzakirələrində PwC Azərbaycanın Ölkə üzrə İdarəedici Partnyoru Mövlan Paşayev ilə yanaşı “Azercell Telekom” MMC-nin baş icraçı direktoru Zarina Zeynalova, “Societe Generale” şirkətinin Xəzər regionu üzrə baş direktoru Teybə Quliyeva, “PAŞA Holdinqin” baş direktoru Cəlal Qasımov və Azərbaycan Turizm Bürosunun baş direktoru Florian Zenqstşmid  iştirak edib.

“Azərbaycanda şirkət rəhbərləri arasında apardığımız sorğu əhval-ruhiyyənin dəyişdiyini göstərir: qlobal iqtisadi çağırışları qəbul etməklə yanaşı, öz ölkələrində iqtisadi artımla bağlı ehtiyatlı nikbinlik müşahidə olunur. Şirkət rəhbərləri dəyişən mühitdə dayanıqlıq və uyğunlaşma qabiliyyətini nümayiş etdirərək rəqəmsal transformasiya, diversifikasiya və işçilərin maksimum dərəcədə cəlb edilməsi vasitəsilə öz bizneslərini fəal şəkildə yeni tələblərə uyğunlaşdırırlar”, “PwC Azərbaycan” şirkətinin Ölkə üzrə İdarəedici Partnyoru Mövlan Paşayev öz çıxışında bildirib.

**Sorğunun əsas nəticələri:**

- Azərbaycandakı şirkət rəhbərlərinin 52%-i şirkətlərinin uzunmüddətli maliyyə dayanıqlığına əmindir;
- Azərbaycandakı şirkət rəhbərləri qlobal və regional həmkarlarından fərqli olaraq öz ölkələrində iqtisadi artım mövzusunda daha yüksək nikbinlik nümayiş etdirirlər;
- Tənzimləmə sahəsində dəyişikliklərin, işçi qüvvəsi çatışmazlığının və istehlakçı tələblərinin dəyişkənliyinin uzunmüddətli gəlirliliyə təsir edəcəyi gözlənilir;
- Yaxın 1-5 il ərzində inflyasiya və geosiyasi məsələlər böyük narahatlıq doğurur;
- Azərbaycandakı şirkət rəhbərləri mümkün iqtisadi tənəzzülə cavab olaraq məhsulları diversifikasiya edir, əməliyyat xərclərini azaldır və alternativ təchizatçılar axtarır;
- Kadr axını göstəricisinin yüksək olaraq qalacağı gözlənilir;
- İnvestisiyalar ilk növbədə proseslərin avtomatlaşdırılmasına, işçi qüvvəsinin ixtisasının artırılmasına və texnologiyanın tətbiqinə yönəldilir;
- Azərbaycandakı şirkət rəhbərləri ötən illə müqayisədə öz şirkətlərinin inkişaf perspektivlərinə daha çox əmindirlər.

*© 2023 PwC. All rights reserved.*

*At PwC, our purpose is to build trust in society and solve important problems of our clients. We achieve this by offering client centric solutions in tax, legal, assurance and advisory from strategy through execution. Over 150 professionals from 4 countries working in PwC Azerbaijan share their thinking, values, experience and solutions to develop fresh perspectives and practical advice for our clients. We are a network of firms in 156 countries with more than 295,000 people who are committed to delivering quality in assurance, advisory and tax services. Find out more and tell us what matters to you by visiting us at www.pwc.com/az*